AZƏRBAYCAN XƏBƏRLƏRİ

# Azərbaycanda istehlakçıların tibbi xərcləri 25 faiz artıb

indicə




Ard-arda açılan dərman zavodları ölkənin tələbatını ödəyirmi?

Son bir ildə Azərbaycanda istehlakçıların əczaçılıq məhsulları və tibbi ləvazimatlara çəkdiyi xərc 24,9 faiz artıb.
Bu barədə Dövlət Statistika Komitəsinin (DSK) bu gün, iyulun 16-da yaydığı məlumatda bildirilir.
DSK vurğulayır ki, 2026-cı ilin yanvar-iyun aylarında pərakəndə ticarət şəbəkəsində istehlakçılara 32,4 milyard manatlıq, o cümlədən 17,6 milyard manatlıq ərzaq məhsulları, içkilər və tütün məmulatları, 14,8 milyard manatlıq qeyri-ərzaq malları satılıb.
2025-ci ilin yanvar-iyun ayları ilə müqayisədə pərakəndə ticarət dövriyyəsi real ifadədə 3,7 faiz, o cümlədən ərzaq məhsulları, içkilər və tütün məmulatları üzrə 1,4 faiz, qeyri-ərzaq malları üzrə 6,5 faiz artıb.
Azərbaycanda tez-tez dərmanların qiymətlərindən şikayətlər eşidilir. Şikayətlərdə həm

bir çox dərmanların keyfiyyətsiz olduğu, həm də qonşu ölkələrlə müqayisədə kəskin baha olduğu deyilir.

Azərbaycanda dərman qiymətlərini dövlət tənzimləyir. Rəsmilər ölkədə dərmanların qiymətinin baha olması ilə bağlı şikayətlərə münasibət bildirmirlər.

## Azərbaycan senayesində sıfıra yaxın artım

Bu ilin ilk yarısında Azərbaycan sənayesində sıfıra yaxın artım baş verib.

Dövlət Statistika Komitəsinin (DSK) iyulun 15-də yaydığı məlumata görə, sənaye sektorunda 2026-cı ilin yanvar-iyun aylarında 33,1 milyard manat məbləğində və ya ötən ilin eyni dövrü ilə müqayisədə real ifadədə 0,1 faiz çox sənaye məhsulu istehsal edilib.

Artımın əsasən emal sənayesində baş verdiyi qeyd edilir:

"Daha çox artım avtomobil, qoşqu, yarımqoşquların istehsalı (2,2 dəfə), əczaçılıq məhsullarının istehsalı (+35,5%), toxuculuq sənayesi (+34,0%), dəri və dəridən məmulatların, ayaqqabıların istehsalı (+20,6%),... sahələrində olub".

Son 1 ayda isə ölkə sənayesində cüzi artım tempində belə azalma olub. DSK 2026-cı ilin yanvar-may aylarında 27,5 milyard manat məbləğində və ya ötən ilin eyni dövrü ilə müqayisədə real ifadədə 0,2 faiz çox sənaye məhsulu istehsalI baş verdiyini açıqlamışdı.

DSK bu ilin ilk yarsında Ümumi Daxili Məhsul (ÜDM) istehsalının isə 0.8 faiz artdığını açıqlamışdı.

Müstəqil iqtisadçılar hesab edirlər ki, ölkə itisadiyyatında böyümə digər region ölkələri ilə müqayisədə çox ləng gedir.

**14 iyul**

### DSK: Azərbaycanda ərzaq 6.7 faiz bahalaşıb, işləyənlər azalıb

2026-cı ilin 6 ayında ötən ilin analoji dövrünə nisbətən Azərbaycanda inflyasiya 5,7 faiz təşkil edib. O, cümlədən qida məhsulları, alkoqollu içkilər və tütün məmulatları 6,7 faiz, qeyri-qida məhsulları 3,8 faiz, əhaliyə göstərilmiş ödənişli xidmətlər isə 5,7 faiz bahalaşıb.

Bu barədə bu gün, iyulun 14-də Dövlət Statistika Komitəsi (DSK) məlumat yayıb.

Amma müstəqil iqtisadçılar bu rəqəmə bir qədər şübhə ilə baxırlar. Onların iddiasına görə, əslində Azərbaycanda inflyasiya ikirəqəmli olub.

Azərbaycan Mərkəzi Bankı (MB) mayda bildirmişdi ki, bu il ölkədə 5,9 faiz inflyasiya proqnozlaşdırır.

Ondan əvvəl qurum illik inflyasiyanın 2026-cı ildə 5,5 faiz olacağını bəyan etmişdi.

## İşləyənlərin sayı 18 minə yaxın azalıb

Dövlət Statistika Komitəsi (DSK) bildirir ki, ölkədə rəsmi işləyənlərin sayı isə azalır. Qurumun açıqlamasına görə, bu il iyunun 1-də ölkədə muzdla çalışan işçilərin sayı 1 milyon 790 min 600 nəfər olub. Onlardan 859,9 min nəfəri dövlət sektorunda, 930,7 min nəfəri qeyri-dövlət sektorunda fəaliyyət göstərib.

DSK-nın statistikasına görə, rəsmi işləyənlərin sayı ondan 1 ay əvvəllə müqayisədə 2, ilin əvvəlinə nisbətdə isə 18 minə yaxın azalıb.
Azalma daha çox qeyri dövlət sektorunda baş verib.
Rəsmilər, hələlik, bunun səbəbini açıqlamayıblar. Amma bu ilin əvvəlindən Azərbaycanda qeyri özəl sektor gəlir vergisinə cəlb edilib.

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur